# Zaman sözün tərəzisində

Fazil Eyvaz oğlu Abbasov 1950-ci ildə Cəbrayıl rayonunun Horovlu kəndində anadan olub. Tibb elmləri doktorudur. Orta məktəb illərindən poeziyaya böyük həvəsi olan Fazil həkimin “Ruhun üsyanı” (Adiloğlu”, 2019) adlı şeirlər kitabına diqqət yetirirəm. Müxtəlif illərdə yazdığı şeirlərdən nümunələr toplanıb. Hamı kimi o da sevgidən də yazıb, vətəndən də, dostdan, övladdan da və s. Bu ənənəvi mövzular içində hamıdan fərqli yaza bilmək isə artıq istedad işidir. Elə bu düşüncə ilə də onun “Zaman” rədifli şeirinin üstündə gəlib dayandım. 8 bəndlik bu nümunə həcmcə uzun olduğundan, ilk baxışda zənn edirsən ki, yorucu da ola bilər.Amma şeir məni o qədər çəkdi ki, elə bu nümunənin timsalında fikirlərimi ümumiləşdirməklə şair-həkim Fazil Abbasovun poetik fikir aləmindən bəhs açmaq yolunu seçdim. Şeirdən aldığım təəssüratlar bir kəlamı təlqin etdi mənə: “Sandım ki, zaman keçir... Sən demə ömür imiş keçən”. Bu kəlamda vurğulanan fikrin mənası adamı düşündürdüyü kimi, Fazil həkimin 8 bəndinin hərəsində ifadə olunan məzmunlu fikir də beləcə oxucunu düşünməyə vadar edir.

Güllər açır, saralır,
Quşlar uçur, yorulur.
Ceyran qaçır, yorulur,
Zaman qaçır, yorulmur.

Bu bəndlə başlayır şeir. Maraqlı poetik bənzətmələr aparan şair güllərin açdıqdan sonra saralıb-soluxduğunu, uçmaq üçün yaranmış quşların müəyyən uçuş məsafəsi qət etdikdən sonra yorulduğunu, sümüyü yüngül heyvan kimi qaçmaqda vərdişkar olan ceyranın da bir mənzil qaçdıqdan sonra dayanıb yorulduğunu göstərir. Bu müqayisələr zəminində isə zamanın da qaçdığını, lakin yorulmadığını bildirir. Demək istəyir ki, bir məsəlimizdə deyildiyi kimi, “hər şey vaxta-vədəyə baxsa da, vaxt heç nəyə baxmır”. Yəni hər şey zamana tabedir, zaman isə heç nəyə tabe deyil..

Bəxtin gözü kor olur,
Fələk susur, kar olur.
Qılınc kəsir, koralır,
Zaman kəsir, koralmır.

Fikir verin: bəxtin gözünün kor olmağı, qılıncın kəsərdən düşüb koralmağı nisbətində zaman yenə də hər şeyi kəsib-töksə də, hər şeyi zamanla məhv etsə də, zaman özü heç vaxt koralmır, kəsərdən düşmür və öz mütləq hakimliyini qoruyub saxlayır.

Ölüm paydır verilən,
Ölüm var, yox dirilən.
Səbrimizdi gərilən,
Zaman sınmır, gərilmir.

Burdakı “səbrimizdi gərilən” ifadəsini diqqətdə saxlamaqla əsas fikrə açar salmaq mümkündür. Yəni insan səbr edir, nəyəsə dözüb gözləyəsi olur. Bu gözləmək - səbr etmək məsələsi məlumdur ki, vaxta-zamana bağlı amildir. İnsan dözür, zamanı gözləyib səbr edir və daxili narahatlıq, təşviş-əndişə və həyəcanlar nə qədər olmaya insanın səbrini-nəfəsini daraldır-tıncıxdırır, nəticədə insanın dözə bilməyəcək dərəcədə səbri gərilir, zərbə isə yenə insanın özünə - cismani ömrünə dəyir. Yuxarıdakı misal gətirdiyim kəlamda deyildiyi kimi, “sandım ki, zaman keçir” - yəni səbr etməklə zamanı gözlədik və zamanın gəlib keçəcəyini (və ya keçdiyini) düşündük, amma ta demədik ki, bu səbr etdiyimiz müddətdə gəlib keçən zaman (vaxt) yox, mahiyyətdə öz ömrümüz imiş. Bax bu mənada zaman məfhumu sınmır, gərilmir deyir Fazil Abbasov. Çünki sınan - zülm çəkən, hövsələsi daralan - səbri gərilən yenə də hər şeyi zamana görə öz ömrünə hesablayan insan olur.







O nə azdı, nə çoxdu,
Əzəli, sonu yoxdur.
Nə kamandı, nə oxdu,
Zaman gözlə görünmür.

Bu misralarda isə zaman anlayışını kəmiyyət və məsafə baxımından səciyyələndirir: zaman elə bir məfhumdur - ölçüdür ki, nə az, nə çox demək olur ona, zaman elə sonsuzdur ki, onun nə hardan başlandığı bəllidir, nə də sonu yoxdur - interval sərhədlərini müəyyənləşdirmək mümkünsüzdür. Nə kamandır ki, hardan çəkildiyi - başlandığı məkanı biləsən, nə də kamandan sıyrılıb çıxan oxdur ki, hara düşəcəyini təxminləşdirə biləsən. Bütün bunlara baxmayaraq, dünyamızın içindən gəlib keçən zamanı gözlə görmək olmur. Zaman özü reallıq olsa da, mücərrəd məfhum kimi gözə görünən deyil.

Ömür keçir gümanla,
Bitir ahla, amanla.
Bəhs etməyək zamanla,
Zaman ölmür, dirilmir.

Bu bənddə isə həkim-şair Fazil Abbasov Ömrün zamana adlı gümanın, ahın-amanın içindən gəlib keçdiyini bildirir. Bir müdrik deyimdə vurğulandığı kimi, bəzən insan yazılanları yaşamaq istəyər, yaşaya bilməz. Bəzən də yaşadıqlarını yazmaq istər, amma yaza bilməz. Bax bu fikirdə əslində zamanla bağlı qiymətli mühakimələr var. Yazılanlar deyildikdə, həyatda “yazılanlardan” söhbət gedir, o yazılanlar ki, zamanla kimlərinsə başına gəlib, ancaq nə həmin zamanı geriyə fırladıb yaşamaq mümkündür, nə də ki, o zamanın içindən keçənləri - o zaman haqqında deyilmiş və yazılmış reallıqları təkrarən yaşamaq mümkündür. Çünki hökmdar zaman hər şeyin hökmünü zamanında vermiş olur. Bu səbəbdən də Fazil həkim “Bəhs etməyək zamanla” - yəni zamanla yarışa - ax-vayı oyuna girmək olmaz deyə tövsiyəsini verir oxucusuna. Ona görə ki, zaman ölmür, ona görə də ölməyən zamanın yenidən dirilməsi də olmur.. Bax belədir zamanın hökmü: ölüb getmədiyinə görə o çağı - o vədəni yenidən dirildib yaşatmaq da olmaz. İnsan ömrü isə zaman içindən ötüb-keçən bir zaman kəsiyidir. İnsanın yaşadıqlarını yaza bilməməsi də ondan irəli gəlir ki, sən yazmaq istədikdə, bir yerdə qərar tutmayan zaman öz rəngini, libasını- bir sözlə, qərarını dəyişib insanı haldan-hala salır:

Çıraq yanır, nur olur,
Ocaq sönür, qor olur.
Ömür bitir, qırılır,
Zaman bitmir, qırılmır.

Məhz insan ömrünün müvəqqətiliyi nisbətində zamanın bitmədiyini - qırılmadığını - əbədiyaşar olduğunu diqqətə çatdırır. Elə ona görə də növbəti bənddə:

Canımıza xof dolur,
Sorğu bizdən sorulur.
Divan bizə qurulur,
Zaman üçün qurulmur, -

deyərək axır-mənşər gününün hər bir insan üçün gələcəyi vaxtı yada salır və bununla da zaman anlayışının insan üçün bitdiyini, zamanın özünün isə ölçü vahidi olaraq sonsuzluğunu göstərir. Məhz bu incə nüansa işarə edən müəllif şeirin son bəndini bir daha oxuculara zamanla bağlı tövsiyə verməklə bitirir:

Zamana diz çök, əyil,
Zamanın qədrini bil.
Zaman sədəqə deyil,
Zaman bir də verilmir.

Göründüyü kimi, hər misradan anafora kimi “zaman” sözü keçir və hər misrada zamanla bağlı şair öyüdü-nəsihəti özünə yer alıb. Necə deyərlər, şair Zamanı bədii sözün tərəzisinə qoyub çəkdikdən sonra belə bir yekun qənaətə gəlib. Yəni zamanla bağlı 7 bəndlik çək-çevirdən - lirik-fəlsəfi təsirlənmələrdən sonra şair həyat reallığına söykənən ümumiləşdirmələrlə oxucularına məsləhətlərini verir. Şairin, yazarın missiyası isə özünün fərqli şəkildə duyub-düşündüklərini oxucularına ismarlamaqla bunlardan doğan ibrətamiz nəticəni çatdırmaqdan ibarətdir. Mən bu yazımda şair-həkim Fazil Eyvazoğlunun zamanla bağlı fəlsəfi-poetik düşüncələrini şərh etməyə macal tapdım. Qoy qalanlarını da oxucular özləri sərbəst şəkildə oxuyub, müəyyən qənaətə gəlsinlər.

*Şakir* Əlifoğlu